# Gənclik gələcəyin təməlidir

*Bu gün Azərbaycanda gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik ruhunda tərbiyəsi, xarici ölkələrdə təhsili üçün yaradılan imkan böyük diqqətin nəticəsidir. Azərbaycanda gəncliyə dövlət qayğısı gələcəyə hesablanan uzaqgörənlikdir və bu siyasət sağlam, intellektual nəslin formalaşmasına xidmət edir. Prezident İlham Əliyev Ulu Öndər tərəfindən təməli qoyulan gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir.*

Gənclərin dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi, onların potensialından düzgün istifadə məqsədilə dövlət proqramları təsdiq edilmişdir. Ölkədə gənc kadrların irəli çəkilməsi siyasətinin təcəssümü olan müsabiqələrin təsis edilməsi gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə kreativ gəncliyin formalaşmasına şərait yaradır.

Zaqatala rayonunda yeni fəaliyyətə başlamalarına baxmayaraq, işinin öhdəsindən layiqincə gəlməyi bacaran üç gənc kadr müsahibim oldu. Onlardan biri Əliabad qəsəbəsi üzrə nümayəndə təyin olunmuş **Aydın Məmmədovdur.**



1998-ci il təvəllüdlü bu gənc 2019-cu ildə Azərbaycan Memarlıq və İnşaat Univerditetində təhsilini uğurla başa vurub. Daha dərin elmi biliklərə yiyələnmək məqsədilə 2019-2021-ci illərdə Türkiyənin Mərmərə Universitetində magistr təhsili alıb. 2022-ci ildə qəsəbə üzrə nümayəndənin müavini, ötən ildən isə nümayəndə vəzifəsini icra etməyə başlayıb.

Əliabad qəsəbəsi haqqında həvəslə danışan müsahibim qeyd etdi ki, qəsəbədə 11090 nəfər əhali yaşayır. Burada 4 tam orta məktəb,3 uşaq bağçası, bir xəstəxana, bir mədəniyyət evi və kollec fəaliyyət göstərir. Əhali əsasən əkinçilik, bağçılıq, baramaçılıq və heyvandarlıqla məşğul olur. Qəsəbənin ümumilikdə 6000 hektar torpaq sahəsi var. Bunun 1484.75 hektarı bağ, 2.396 hektarı əkin sahələridir. Cari ildə qəsəbədə 9 nəfər kümçüyə 703 qram ipək qurdu paylanılıb. Kümçülər toplam 1500 kiloqram yüksək növ barama təhvil veriblər. Son illərdə qəsəbədə tütünçülüyə maraq azalmışdı. Bu il isə fermerlər arasında artıq bu gəlirli sahəyə də diqqət artıb. Hazırda 3 hektar sahədə tütün becərilir, ilkin yaş yarpaq yığımı başlayıb. Çalışırıq ki, kənd təsərrüfatının tütünçülük və baramaçılıq sahələrini daha da canlandıraq, bu sahədə fermerləri dəstəkləyək, şirkətlərlə əməkdaşlığı genişləndirək, ən əsası isə əhalinin maddi gəlirləri artsın.

Hazırda qəsəbədə sosial məsələlərin həlli, vətəndaş məmnuniyyətinin artırılması, əhali ilə açıq və operativ ünsiyyətin təmin olunması və müraciətlərin vaxtında, obyektiv həllinə çalışırıq. Qəsəbədə fəaliyyət göstərən sosial obyektlərlə daim sıx əlaqə saxlayır, onların işinin daha səmərəli təşkilinə köməyimizi əsirgəmirik. Həssas təbəqədən olan aztəminatlı ailələrin dəstəklənməsi üçün müvafiq qurumlarla koordinasiyalı fəaliyyət həmişə diqqət mərkəzindədir.

Şəhidlər and və qürur yerimizdir. Əliabad qəsəbəsi vətən torpağının azadlığı uğrunda döyüşlərdə 8 igidini itirib. Bu gün şəhid ailələrinə qayğı ən ümdə məsələdir. Gənclərlə daha çox əlaqə saxlamağa çalışırıq. Onların maarifləndirilməsi, təşəbbüslərinin dəstəklənməsi fəal əməkdaşlığa səbəb olur. Bir sözlə, şəffaflığı, hesabatlılığı qorumaq, görülən işləri vaxtaşırı ictimaiyyətə təqdim etmək, sakinlərin idarəetmədə iştirakının təşviqi əsas işimizdir.

Digər müsahibim **Dürrə Hacıyeva** Qanıx çayının yaxınlığında, kiçik Kəpənəkçi kəndində dünyaya göz açıb. Kənd məktəbini bitirən Dürrə bakalavr təhsilini Azərbaycan Dillər Universitetində "İngilis dili müəllimliyi" ixtisası üzrə bitirib. Magistr təhsilini isə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı çərçivəsində Böyük Britaniyanın Qlazqo Straskqlayd Universitetində "Təhsil tədqiqatları və təşkilati inkişaf" ixtisası üzrə müvəffəqiyyətlə başa vurub. O, müxtəlif dövlət qrumları və təşkilatlarında əmək fəaliyyəti ilə məşğul olub. Həmçinin Azərbaycan Respublikasının Təhsil İnstitutunda Layihələrin idarə olunması və beynəlxalq əməkdaşlıq şöbəsində baş mütəxəssis, Elm və Təhsil Nazirliyi ilə ORT İsrail məktəblər şəbəkəsinin birgə həyata keçirdiyi innovativ məktəb layihəsinin koordinatoru vəzifəsində çalışıb.



Dürrə Hacıyeva xaricdə təhsil almasına, Bakıda Təhsil İnstitutunda işləməsinə baxmayaraq, doğma Zaqatalaya qayıtmağa üstünlük verib.

Elm və təhsil nazirinin əmri ilə bu ilin aprel ayında Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecinin direktoru vəzifəsinə təyin olunub.

Kollecin iri ağaclarla əhatə olunan, gözəl mənzərəli, sanki parka bənzəyən həyətində müsahibim qeyd etdi ki, əsas hədəfim xaricdə təhsil aldığım zaman öyrəndiklərimi ölkəmə qaytarmaqdır, oradakı təcrübəmi burada tətbiq etməkdir. Magistraturada "Azərbaycanın uzaq regionlarında təhsilə əlçatanlılıq" araşdırma mövzum idi. İndi işlədiyim kollecdə bu mövzu ətrafındakı layihələrimi tətbiq etməyə çalışıram. Kollecin əsası 1922-ci ildə Əhməd Rəcəbli tərəfindən qoyulub. Burada Azərbaycan elminə öz töhfələrini verən İmam Mustafayev, Abdulla Muxtarov kimi görkəmli şəxsiyyətlər təhsil alıb, yetişiblər. Bu gün də kollecimizin məzunları bu ənənəni qoruyub saxlayırlar. Hazırda kollecdə tələbələr 5 ixtisas üzrə təhsil alırlar. Yeni ixtisasların yaradılması üçün təkliflər paketi hazırlamışıq. Əsas hədəflərimizdən biri isə bütün sahələrdə texnologiyalardan istifadə etməkdir.

Üçüncü gənc müsahibim uşaqlıqdan musiqiyə marağı olan **Günel Abbasova** orta məktəblə yanaşı, Zaqatala şəhər Uşaq İncəsənət Məktəbində tam yeddiillik kursu da bitirib. O, musiqi təhsilini davam etdirmək üçün Dağıstan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən İncəsənət İnstitutuna daxil olub, 2015-ci ildə fortepiano və musiqi müəllimi ixtisası üzrə bitirib. Əvvəl Zaqatala şəhər Uşaq İncəsənət Məktəbində musiqi müəllimi, 2017-ci ildən həmin məktəbdə tədris üzrə müdir vəzifəsində çalışıb, 2022-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilən direktorların qəbul imtahanında yüksək nəticə göstərərək 2024-cü ildə nazirlik tərəfindən Zaqatala şəhər Uşaq İncəsənət Məktəbinə direktor vəzifəsinə təyin olunub.



Musiqi məktəbi 1953-cü ildən fəaliyyət göstərir. Günel müəllim qeyd etdi ki, musiqi məktəbi fəaliyyətə başlayanda iki şöbə vardı, şagirdlər yalnız qarmon və fortepiano üzrə ixtisaslaşırdılar. 1989-cu ildən indiyədək isə 9 ixtisas üzrə fəaliyyət göstərir. Hazırda məktəbimizdə böyük müəllim kontingenti var və onlar 472 şagirdə musiqi təhsili verirlər. Şagirdlərimiz beynəlxalq, respublika, regiondaxili müsabiqələrdə, incəsənət festivallarında rayonumuzu uğurla təmsil edir, tədbirlərdə göstərdikləri fəallığa görə xüsusilə seçilirlər.

Qarşıda duran vəzifələr, gələcək planlar çoxdur. Çalışırıq rayon gənclərinin asudə vaxtlarını dəyərləndirək, onların bədii-estetik zövqünü inkişaf etdirək, xüsusi istedadı olan şagirdlərin inkişafına şərait yaradaq, gələcəkdə onları dövlətimizə xidmət göstərən savadlı, təcrübəli pedaqoq, bəstəkar, tanınmış musiqiçi kimi yetişdirək.

Gənc müsahiblərimlə söhbət apardıqca, onların qarşılarına qoyduqları məqsədlərinə doğru necə inamla, həvəslə irəlilədiklərini gördükdə fikirləşirəm ki, gənclik həqiqətən də gələcəyin təməlidir.

**Elmira HACIYEVA.**

Respublika .- 2025.- 3 iyul (№ 133).-